**QANUNVERİCİLİKDƏ**
**BAŞ VERMİŞ DƏYİŞİKLİKLƏR**
*2025-ci ilin yanvar, fevral ayları*

**LEGAL UPDATES**
*January, February 2025*



Qanunvericilikdə
baş vermiş dəyişikliklər

Legal updates


- İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi təsdiq edilmişdir ........ 2
- Qanunlarda sənədlərin Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilməsinə dair müvafiq əlavələr edilmişdir............................................................................................................. ....... 4
- Dövlət rüsumunun ödənilməsinin yeni qaydaları müəyyən edilmişdir.............................................................. 6
- Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti uzadılmışdır........................................... 8
- Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydalarında dəyişikliklər edilmişdir............................................................................................................................. 8

Qanunvericilikdə
baş vermiş dəyişikliklər

Legal updates

**16 yanvar 2025-ci il**

## İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi təsdiq edilmişdir.

“Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 15 yanvar 2025-ci il tarixli 8 nömrəli Qərar ilə “İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi” təsdiq edilmişdir.

Belə ki:

| Sıra №-si | Tələbin dəyəri | Xidmət haqqının yuxarı həddi (ƏDV-siz) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | 20 000 manatadək olduqda | 150 manat |
| 2. | 20 000 manatdan 100 000 manatadək olduqda | 150 manat + 20 000 manatdan yuxarı olan dəyərin 0,2 faizi |
| 3. | 100 000 manatdan 1000 000 manatadək olduqda | 310 manat + 100 000 manatdan yuxarı olan dəyərin 0,1 faizi |
| 4. | 1 000 000 manatdan çox olduqda | 1 210 manat + 1 000 000 manatdan yuxarı olan dəyərin 0,05 faizi |

**January 16, 2025**

## According to the assessment conducted based on enforcement documents, the upper limit of the service fee has been approved.

In order to ensure the implementation of the Decree of the President of the Republic of Azerbaijan dated December 30, 2023, No. 1052-VIQ “On the Application of the Law of the Republic of Azerbaijan “On Valuation Activities” dated December 8, 2023”, the Cabinet of Ministers of the Republic of Azerbaijan, by its Decision No. 8 dated January 15, 2025, has approved the “Upper limit of service fees for valuation based on enforcement documents”.

Thus,

| Order № | The cost of the claim | Upper limit of service fee (excluding VAT) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Up to AZN 20 000 | AZN 150 |
| 2. | From AZN 20 000 to AZN 100 000 | AZN 150 + 0.2 percent of the value over AZN 20 000 |
| 3. | From AZN 100 000 to AZN 1 000 000 | AZN 310 + 0.1 percent of the value over AZN 100 000 |
| 4. | If it exceeds AZN 1 000 000 | AZN 1 210 + 0.05 percent of the value over AZN 1 000 000 |

Qanunvericilikdə
baş vermiş dəyişikliklər

Legal updates

Qeyd edək ki, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən borclunun əmlakı icra sənədləri əsasında icra məmuru tərəfindən qiymətləndirici dəvət edilməklə qiymətləndirilir. Bu hala ipoteka predmeti ilə bağlı münasibətlərdə tez-tez rast gəlmək olar.

Odur ki, yuxarıdakı cədvəldə qeyd edilən "tələbin dəyəri" dedikdə, tələbin yönəldiyi predmetin (əmlakın) dəyəri nəzərdə tutulur.

Qeyd etmək zəruridir ki, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Qiymətləndiricinin xidmətlərindən istifadə olunması ilə bağlı xərclər bərabər həcmdə tərəflərin üzərinə qoyulur. Notariusun icra qeydi əsasında ipoteka predmetinə tələb yönəldikdə, müstəqil qiymətləndiricinin xidmətlərindən istifadə olunması ilə bağlı xərclər ipoteka saxlayan tərəfindən ödənilir.

It should be noted that, based on the Law of the Republic of Azerbaijan "On Enforcement", the debtor's property is evaluated by the enforcement officer with the invitation of an appraiser based on enforcement documents. This situation is often encountered in relation to mortgage transactions.

Therefore, the "value of the claim" mentioned in the table above refers to the value of the subject (property) to which the claim is directed.

It is necessary to note that according to the Law of the Republic of Azerbaijan "On Enforcement", the costs associated with using the services of the Appraiser are borne equally by the parties. When a claim is directed against the mortgage subject based on a notary's enforcement record, the costs associated with using the services of an independent appraiser are paid by the mortgagee.

Qanunvericilikdə
baş vermiş dəyişikliklər

Legal updates

**28 yanvar 2025-ci il**

**Qanunlarda sənədlərin Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilməsinə dair müvafiq əlavələr edilmişdir.**

Azərbaycan Respublikasının 28 yanvar 2025-ci il tarixli Qanununa əsasən bir sıra qanunlarda müvafiq sənədlərin Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra "EHİS") üzərindən təqdim edilməsinin sənədlərin təqdim edilməsinə bərabər tutulmasına dair dəyişikliklər edilmişdir. Həmin qanunların və müvafiq olaraq EHİS üzərindən təqdim edilə (əldə edilə) bilən məlumatların bir neçəsi aşağıda qeyd edilmişdir:

- Əmək Məcəlləsinə edilən dəyişikliyə əsasən, işçinin vəzifəsi (peşəsi), müvafiq dövr ərzində qazancı barədə arayış, arxiv məlumatları, şəxsi sənədlərinin təsdiq edilmiş surətləri, habelə onun peşəkarlıq, işgüzarlıq səviyyəsini və digər şəxsi xüsusiyyətlərini xarakterizə edən xasiyyətnamə;
- Miqrasiya Məcəlləsinə edilən dəyişikliyə əsasən, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda göstərilən məlumatlar, iş icazəsində göstərilən məlumatlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsində göstərilən məlumatlar

**January 28 , 2025**

**The relevant amendments have been made to the laws regarding the submission (or receipt) of documents through the Electronic Government Information System.**

According to the Law of the Republic of Azerbaijan dated January 28, 2025, amendments have been made to a number of laws regarding the submission of relevant documents through the Electronic Government Information System (hereinafter referred to as "EGIS") as equivalent to the submission of documents. Some of those laws and the information that can be submitted (obtained) through the EGIS, respectively, are listed below:

- Based on the amendment to the Labor Code, a certificate regarding the employee's position (profession), income during the relevant period, archival data, certified copies of personal documents, as well as a reference characterizing their professionalism, business competence, and other personal traits.
- Based on the amendment to the Migration Code, the information specified in the decision regarding the extension of the temporary stay period of foreigners and stateless persons in the Republic of Azerbaijan, the information specified in the work permit, the information specified in the residence permit for permanent residence in the Republic of Azerbaijan,

Qanunvericilikdə
baş vermiş dəyişikliklər

Legal updates

və həmçinin Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsində göstərilən məlumatlar;

- “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyə əsasən, kommersiya qurumları və publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasını və dövlət reyestrinə daxil edilməsini, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasını və dövlət reyestrinə daxil edilməsini təsdiq edən sənədlərdə (dövlət qeydiyyatı haqqında şəhadətnamədə, dövlət reyestrindən çıxarışda, nizamnamə və ya nizamnaməyə dəyişiklikdə) göstərilən məlumatlar;

- “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyə əsasən, lisenziyada və icazədə, habelə onun əlavəsində göstərilən məlumatlar,

Elektron Hökumət İnformasiya Sistemi üzərindən şəxslərə təqdim edilə (əldə edilə) bilər. Bu sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin sənədlərin təqdim edilməsinə bərabər tutulur.

and also the information specified in the residence permit for temporary stay in the Republic of Azerbaijan.

- Based on the amendment to the Law of the Republic of Azerbaijan on “State Registration of Legal Entities and the State Register”, the information specified in the documents certifying the state registration and inclusion in the state register of commercial entities and public legal entities, as well as the subsequent changes in the founding documents and facts registered in the register (in the certificate of state registration, extract from the state register, charter or amendments to the charter).

- Based on the amendment to the Law of the Republic of Azerbaijan on “Licenses and Permits” the information specified in the license and permit, as well as in their annexes,

can be submitted (obtained) to individuals through the Electronic Government Information System. Submission of the information specified in these documents through the Electronic Government Information System is considered equivalent to submission of those documents.

Qanunvericilikdə
baş vermiş dəyişikliklər

Legal updates

**3 fevral 2025-ci il**

**Dövlət rüsumunun ödənilməsinin yeni qaydaları müəyyən edilmişdir.**

Dövlət rüsumlarının, artıq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sistemi üzərindən elektron qaydada ödənilməsi mümkün olacaq. Bununla bağlı 3 fevral 2025-ci il tarixində "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmiş və eyni tarixdə Qanunun tətbiqinə dair Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır. Fərmana əsasən Mərkəzi Banka 2 ay müddətində Hökumət Ödəniş Portalının "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sisteminə inteqrasiya edilməsi ilə bağlı zəruri tədbirlər görməsi tövsiyə edilmişdir.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dövlət rüsumunun ödənilməsinə dair digər yeni qaydalar müəyyən edilmişdir. Belə ki, Qanunun 4.3-cü maddəsinə əsasən dövlət rüsumları "e-bildiriş" əsasında ödəniləcəkdir.

**February 3, 2025**

**The new rules for the payment of the state duty have been established.**

The payment of state duties will now be possible electronically through the "Electronic Management of State Duties (e-duty)" information system of the Ministry of Finance of the Republic of Azerbaijan. In this regard, amendments were made to the Law of the Republic of Azerbaijan on "State Duty" on February 3, 2025, and on the same date, a Decree on the implementation of the Law was signed by the President of the Republic of Azerbaijan. According to the Decree, the Central Bank is recommended to take necessary measures within a period of two months to integrate the Government Payment Portal with the "Electronic Management of State Duties (e-duty)" information system.

Other new regulations regarding the payment of state duties have been established in the Law of the Republic of Azerbaijan on "State Duty". Specifically, according to Article 4.3 of the Law, state duties will be paid based on the "e-notification".

Qanunda müəyyən edilmişdir ki, “e-bildiriş” – dövlət rüsumu tutulan hər bir xidmət və hüquqi hərəkət üzrə elektron qaydada tərtib olunan, dövlət rüsumunun dövlət büdcəsinə daxilolmalarının təyinatı üzrə hesablanması və köçürülməsi üçün istifadə olunan informasiya sistemi (e-rüsum) vasitəsilə təqdim edilən sənəddir.

Bununla yanaşı, düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun, dövlət rüsumunun ödəyicisinin ərizəsinə əsasən 20 gün əvəzinə 10 gün müddətində ona qaytarılması nəzərdə tutulmuşdur.

Həmçinin, Qanuna əlavələr edilmiş və yeni dövlət rüsumları müəyyənləşdirilmişdir. Bunlardan bir neçəsi aşağıdakı kimidir:

- ➢ Rüsumsuz ticarət mağazasının yaradılmasına icazənin verilməsi – 100 manat;
- ➢ Sənaye parkının, sənaye məhəlləsinin və aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi – 70 manat;
- ➢ Texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin verilməsi – 70 manat;
- ➢ İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazənin verilməsi – 70 manat.

The Law stipulates that the “e-notification” is a document electronically prepared for each service and legal action subject to state duty, which is submitted through the information system (e-duty) used to calculate and transfer the state duty to the state budget in accordance with the designated purpose of the revenues.

In addition, it is envisaged that incorrectly withheld or overpaid state duty will be returned to the payer of the state duty within 10 days instead of 20 days, upon his application.

Furthermore, amendments have been made to the Law, and new state duties have been established. Some of these include the following:

- ➢ Issuance of permission for the establishment of a duty-free trade store – AZN 100;
- ➢ Issuance of a registration certificate for a resident of an industrial park, industrial compound and agro-park – AZN 70;
- ➢ Issuance of a registration certificate for a technology park – AZN 70;
- ➢ Issuance of permission for the export, re-export, import, re-import, or transit of goods (works, services, intellectual property results) subject to export control – AZN 70.

**17 fevral 2025-ci il**

**Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti uzadılmışdır.**

17 fevral 2025-ci il tarixində “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması” haqqında Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilmişdir. Belə ki, 1-ci maddəyə dəyişiklik edilərək Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2025-ci il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək dayandırılmışdır.

**24 fevral 2025-ci il**

**Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydalarında dəyişikliklər edilmişdir.**

24 fevral 2025-ci il Nazirlər Kabinetinin Qərarı ilə ƏDV-nin depozit hesabına ödənilməsi ilə bağlı qaydalarda dəyişiklik edilmişdir.

**February 17, 2025**

**The suspension period for inspections in the field of entrepreneurship has been extended.**

On February 17, 2025, an amendment was made to the Law of the Republic of Azerbaijan on “Suspending Inspections in the Field of Entrepreneurship”. Thus, a change was made to Article 1, which suspends inspections in the field of entrepreneurship in the territory of the Republic of Azerbaijan from January 1, 2025 to January 1, 2026.

**February 24, 2025**

**Changes have been made to the Rules regarding the payment of VAT when the value of goods (works and services) purchased under an electronic invoice issued to the taxpayer is paid, the accounting of VAT in the deposit account, the movement of VAT, VAT offset from transactions conducted in this account, and its transfer to the state budget.**

By the Resolution of the Cabinet of Ministers dated February 24, 2025, the rules on the payment of VAT to the deposit account were amended.

Belə ki,

- mal (iş, xidmət) təqdim edən satıcı tərəfindən alıcıya təqdim olunan elektron qaimə-fakturalarda,
- bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən alıcıya təqdim olunan elektron qaimə-fakturada, müqavilədə, qəbzdə və ya çekdə,
- Azərbaycan Respublikasının ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən alıcıya təqdim olunan qəbzdə, çekdə, elektron qaimə-fakturada,

ƏDV məbləğinin köçürülməsi üçün nəzərdə tutulan ƏDV-nin depozit hesabının rekvizitləri göstərilməli olması ilə bağlı tələb aradan qaldırılmışdır.

Bununla yanaşı, daha bir tələb aradan qaldırılaraq müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının alıcıları qəbzdə, çekdə, elektron qaimə-fakturada göstərilən kənd təsərrüfatı məhsullarının ticarət əlavəsindən hesablanan ƏDV-nin məbləğini artıq **ƏDV-nin depozit hesabına köçürməli deyillər**.

Thus,

- in electronic invoices submitted to the buyer by the seller providing goods (work, services),
- in electronic invoices, contracts, receipts or checks submitted to the buyer by a person engaged in building construction activities,
- in receipts, checks, electronic invoices submitted to the buyer by a person engaged in retail trade of agricultural products produced in the territory of the Republic of Azerbaijan,

the requirement to provide details of the VAT deposit account intended for transferring the VAT amount has been removed.

In addition, another requirement has been removed, specifying that buyers of agricultural products which produced in the territory of the Republic of Azerbaijan are **no longer required to transfer the amount of VAT** calculated on the trade markup of agricultural products shown on receipts, checks, and electronic invoices to the VAT deposit account.

**Diqqətiniz üçün təşəkkür edirik!**

**Thank you for your attention!**